# Qəbələ: Uğurlar, bəhrələr

***Üçüncü minilliyin daha bir ilini yola saldıq. Müstəqil Azərbaycan dövləti ötən illər ərzində çox sürətli inkişaf yolu keçmişdir. Xüsusilə, son illərin nəticələri fərəhləndiricidir. Artıq bir neçə ildir ki, ölkəmiz ümumi daxili məhsulun inkişaf tempinə görə nəinki MDB məkanında, Avropada, eləcə də dünyanın bir sıra inkişaf etmiş ölkələri arasında lider dövlətə çevrilmişdir. 2014-cü ildə də müstəqil Azərbaycan bu liderliyi qoruyub saxlaya bilmişdir.***

***Böyük uğurların qazanılmasında, əlbətdə, doğma Qəbələmizin də payı vardır.***

## Bəs uğurlar haradan qaynaqlanmışdır?

2002-ci ilin payızında, ölkənin müstəqilliyinin 10-cu ilində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qəbələyə rəsmi səfərə gəlmişdi. Əslində, Azərbaycana rəhbərliyi dövrundə böyük şəxsiyyətin bu səfəri Qəbələyə ikinci səfəri idi. Birinci səfəri isə 1978-ci ildə olmuşdur. Onun hər gəlişi rayonumuzun sosial-iqtisadi inkişafına yeni nəfəs vermiş, görüləcək işlərin vüsəti daha da yüksəlmişdir. Ümumiyyətlə, Heydər Əliyev Azərbaycan xalqına Allah vergisi idi. Qeyd edək ki, bir sıra siyasi analitiklər də qeyd edirlər ki, Heydər Əliyev XX əsrdə dünyanın ən böyük dahi şəxsiyyətlərindən biridir. O, nəinki Azərbaycanda, bütün türk dünyasında, İslam ölkələrində sayılıb-seçilən dövlət xadimlərindən biri olmuşdur.

Heydər Əliyevin Qəbələyə ikinci rəsmi səfərindən sonra qazanılan uğurlar da Azərbaycanın bu böyük oğlunun adı ilə bağlıdır. 2003-cü ilin dekabr ayında Heydər Əliyev dünyasını dəyişdikdən sonra Azərbaycanda siyasi hakimiyyətə gələn, onun doğma varisi İlham Əliyev Heydər Əliyev siyasətinə daim sadiq qalmış, onun siyasi kursunu yaradıcılıqla, zamanın tələblərinə uyğun olaraq davam etdirilməkdədir. Bütün sahələrdə Azərbaycanın, o cümlədən Qəbələnin qazandığı uğurlar da Heydər Əliyev siyasətinin həyata keçirilməsindən qaynaqlanmışdır. İlham Əliyev demişdir: «Bizim ümumi məqsədimiz ondan ibarətdir ki, Azərbaycanı hərtərəfli şəkildə inkişaf etdirək, müasir dövlətə çevirək, dünyada mövcud olan bütün mütərəqqi təcrübəni tətbiq edək, insanların bütün azadlıqlarını təmin edək, hüquqi dövlət quruculuğu işində daha böyük addımlar ataq. Ancaq bu halda Azərbaycan uzunmüddətli və dayanıqlı inkişaf imkanlarını tam şəkildə ortaya qoya bilər». Cənab Prezidentin müstəqil Azərbaycanın hərtərəfli inkişaf etdirilməsini və sitatda qeyd olunan digər fikirlərin təsdiqini elə Qəbələnin timsalında da görmək olar.

İlham Əliyev ölkəyə rəhbər seçildikdən az sonra qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar icrası 5 il üçün nəzərdə tutulan dövlət proqramlarının qəbul edilməsi haqqında fərmanlar imzaladı. Birinci Dövlət Proqramı 2004—2008-ci illəri, ikinci Dövlət Proqramı 2009--2013-cü illəri əhatə edirdi. Bu proqramlarda təkcə paytaxt Bakı şəhərini, yaxud Sumqayıt, Şirvan, Gəncə kimi iri şəhərləri deyil, respublikanın bütün rayonlarının tarazlı və hərtərəfli inkişaf etdirilməsi nəzərdə tutulurdu. Dövlət proqramları bütün sahələr üzrə və hətta əlavə tədbirlərlə birlikdə müəyyən olunmuş vaxtlarda uğurla yerinə yetirilmişdir. Üçüncü Dövlət Proqramı (2014—2018) isə cənab Prezidentin ötən il fevral ayının 27-də imzaladığı fərmanla təsdiq olunmuşdur.

Bütün dövrlərdə proqramların icrasına nəzarəti cənab Prezident öz üzərinə götrmüşdür. Ona görə də dövlət başçısı vaxtaşırı bütün bölgələrə səfərə çıxır, tapşırıqların yerinə yetirilməsinə nəzarət edir, işlərin sürətlənməsi üçün yeni tapşırıq və tövsiyələrini verir. Bu məqsədlə 2013 və 2014-cü illərin hər birində iki dəfə Qəbələdə rəsmi səfərdə olmuş, yeni istifadəyə verilən obyektlərin açılışlarında şəxsən iştirak etmişdir. Cənab Prezident Qəbələ ilə tanışlıqdan sonra ictimaiyyətin nümayəndələri ilə görüşündə demişdir: «Qəbələ rayonun sürətli inkişafı ulu öndərimiz Heydər Əliyevin rayonun gələcəyi ilə bağlı müəyyən etdiyi inkişaf proqramının nəticəsidir. Qəbələdə çəkilən yollar, salınan parklar və xiyabanlar, tikilən yeni binalar və sənaye müəssisələri həmin proqramın real həyatımızda təsdiqidir».

## Gerilikdən yüksəlişə doğru

Vaxtilə Qəbələ ölkənin ucqar, çox geridə qalmış bir rayonu idi. Hələ qonşu ölkələr bir yana qalsın, heç Azərbaycanın özündə belə kifayət qədər tanınmırdı. Lakin son 10 ildə Qəbələ şəhəri ilə birlikdə qəsəbələrimiz, kəndlərimiz sürətli inkişaf yoluna qədəm qoydu. Həyata keçirilən doğru, düzgün və real siyasətin nəticəsi idi ki, rayonda sürətli inkişaf öz axarına düşdü. Küçə və meydanlar başdan-başa müasir şəhərsalma metodlarına uyğun olaraq yenidən quruldu, bir sıra kəndlərə asfalt yollar çəkildi, kəndlər abadlaşdırıldı. Regionların sosial-iqtisadi inkişafı üzrə birinci Dövlət Proqramının icrasına hamıdan əvvəl Qəbələdə başlanıldı.

O vaxtları yaxşı xatırlayıram. Hətta, bir sıra rayonların rəhbərləri, mütəxəssisləri Qəbələdə geniş vüsət alan sosial-iqtisadi inkişafla tanış olmaq, təcrübə qazanmaq məqsədilə rayonumuza gəlirdilər. Həqiqətən, sanki rayon geniş bir tikinti meydancasını xatırladırdı. Bir tərəfdə köhnəlmiş binalar sökülür, yerində yeniləri tikilir, digər tərəfdə müasir yaşayış binaları, istehsal müəssisələri, xidmət obyektləri ucaldılırdı. Təhsil, səhiyyə, mədəniyyət ocaqları yenidən qurulurdu. Şəhərin mərkəzindəki küçələrin görünüşü başdan-başa dəyişdirilir, abadlaşdırılırdı. Dağ çayları üzərində yeni, davamlı körpülər tikilir, bütün kəndlərimizə gediş-gəliş yaxşılaşdırılırdı. İdarə və müəssisələr üçün də yeni inzibati binalar inşa edilir, işçilər üçün geniş rahat və uyğunlaşdırılmış iş şəraiti yaradılırdı. Bütün bunlar hər sahədə əmək məhsuldarlığını yüksəldirdi. İllər ötdükcə bu çərçivə genişləndi. Artıq Qəbələ regional mərkəzə çevrilməyə başladı.

## Turizm diyarına çevrilən region

Qəbələdə turizmin inkişaf etdirilməsi də ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər 2002-ci ilin payızında Qəbələ rayonuna rəsmi səfəri zamanı burada turizmin inkişafı üçün kifayət qədər potensial olduğunu vurğulamışdır. Unikal təbiətə, maraqlı coğrafi mövqeyə malik olan Qəbələ həqiqətən ilin bütün fəsillərində özünəməxsus əsrarəngiz gözəllikləri ilə diqqəti cəlb edir. Tezliklə rayonun şimal və şərq zonalarında yeni, müasir beşulduz, dörd ulduz, üculduz otellər, istirahət mərkəzləri, sağlamlıq ocaqları, idmanın müxtəlif növləri üzrə meydançalar tikilməyə, qurğular qurulmağa başlanıldı. Hazırda Qəbələdə 4 beşulduz, 1 dördulduz, 2 üçulduz otellər, ümumilikdə 17 mehmanxana, mehmanxana tipli istirahət mərkəzləri fəaliyyət göstərir, İndi eyni vaxtda rayonda 3000 nəfərədək turisti qəbul etmək mümkündür.

Hazırda Qəbələ bir sıra regional və beynəlxalq tədbirlərə ev sahibliyi edir. Burada dövlətlərarası və regional, elmi konfranslar, görüşlər, forumlar keçirilir. 1200 nəfərlik Heydər Əliyev konqres mərkəzi, 500 nəfərlik mədəniyyət mərkəzi fəaliyyət göstərir. Qəbələ 2013-cü ildə «MDB ölkələrinin mədəniyyət paytaxtı», 2014-cü ildə respublika Mədəniyyət və Turizm Nazirliyi tərəfindən «Əfsanələr paytaxtı» elan edilmişdir. Təkcə ötən bir ildə Qəbələdə 10-a yaxın regional və beynəlxalq tədbir keçirilmiş 6 dəfə müxtəlif ölkə rəhbərlərinin başçılıq etdiyi nümayəndə heyətlərinin rayon icra hakimiyyətinin başçısı ilə görüşləri keçirilmiş, onlar rayonun sosial-iqtisadi inkişafı ilə tanış olmuş, əlaqələrin genişləndirilməsi üçün qarşılıqlı müqavilələr bağlanılmışdır.

Əgər 2008-ci ildə Qəbələyə gələn turistlərin sayı 14600 nəfər olmuşdursa 2014-cü ildə onların sayı 40.000 nəfərə yaxınlaşmışdır. Rayona gələn turistlərin sayının yarıdan çoxu xarici turistlər olmuşdur. Mübaliğəsiz demək olar ki, Qəbələ bu gün dünyanın diqqətini özünə cəlb edən unikal mədəniyyət və turizm mərkəzinə çevrilməkdədir. Qəbələyə gələn hər bir turist buradan xoş təəssuratlarla geri qayıdır. Qəbələnin dilbər guşələri, inkişaf sürəti, insanların mehribanlığı, qonaqpərvərliyi onları heyrətə gətirir.

Bəli, Qəbələ əlverişli coğrafi məkanda yerləşdiyinə görə çox-çox qədimlərdə şərqlə qərb arasında tanındığı kimi yenidən öz şöhrətinə qovuşmaq üçün inamlı irəliləyiş yolları ilə davam edir.

## Sənaye və Kənd Təsərrüfatının inkişafı

Regional dövlət proqramlarında ölkədə sənayenin və aqrar sahələrin inkişaf etdirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndirilmişdir. Proqramlarda qoyulan bu məsələ Qəbələdə də diqqət mərkəzində saxlanılır. Təkcə ötən ilin 9 ayında iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 216.550 min manatlıq məhsul istehsal edilmişdir. Sənayedə artım 128 min manat, yaxud 0,9 faiz, kənd təsərrüfatında 1 mlyon 210 min manat, yaxud 21,5 faiz olmuşdur. Sənaye müəssisələrində çalışan 793 nəfər işçinin orta aylıq əməkhaqqı 397 manata çatmışdır.

Meyvə şirələri istehsal edən zavodun gucu 2 dəfə artırılmış, müəssisədə ölkə tələbatından 2 dəfə çox müxtəlif şirələr, nektarlar, yarımfabrikat konsentratlar istehsal olunur. Zavodun məhsulları dünyanın 30-a yaxın ölkəsinə ixrac edilir. Hazırda Qəbələdə limonad, qazlı və qazsız sular, çörək məmulatları, tikinti materialları istehsalı və s, zavodlar fəaliyyət göstərir.

Aqrar sahədə taxılçılığın, heyvandarlığın, meyvəciliyin, o cümlədən üzümçülüyün inkişafı diqqət mərkəzində saxlanılır. Bu sahələrin inkişafında da ildən-ilə dönüş yaradılır. «Aspi Aqro»» MMC rayonda üzüm və şərab istehsalını mütəmadi olaraq artırır.

## İş yerlərinin sayı çoxalır

Rayonda davam edən sosial-iqtisadi inkişaf ildən-ilə iş yerlərinin artmasına təminat yaradır. 2003-cü ilin oktyabr ayından ötən ilin oktyabrınadək rayonda 12443 iş yeri açılmışdır. Bu iş yerlərinin 10.395-i daimi iş yeridir. Ötən ilin 9 ayında isə 640 yeni iş yeri açılmaqla hamısı daimi olmuşdur.

Rayonda məşğul əhalinin sayı 47.405 nəfərdir. Muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 271 manat təşkil etmişdir. Bu, 2013-cü illə müqayisədə 14,4 faiz çoxdur.

**Nadir ATAKİŞİYEV,**